*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

3 noyabr 2023-cü il №42 (9050) www.muallim.edu.az muallim@edu.gov.az

2022-ci ildə vətəndaşlardan 27461 yazılı, 32138 elektron müraciət daxil olub və cavablandırılıb. 2023-cü ilin ilk 9 ayı ərzində 18337 yazılı, 30716 elektron, Çağrı mərkəzləri vasitəsilə 300 mindən çox, vətəndaş qəbulu və "ASAN Xidmət" mərkəzlərində 30000-dən çox, "Sosial Media - WhatsApp" Xidməti vasitəsilə 105000-dən çox vətəndaş müraciətləri cavablandırılıb.

# "Təhsildən tərəqqiyə"



### Emin Əmrullayev

İnsan zamanla yetişir, onları zamandan sürətli yetişdirmək metodu isə yoxdur.

Səhv etmək çox vacib öyrənmə elementidir.

Satışda, marketinqdə bacarığı olanlar daha çox mənfəət əldə edirlər, nəinki məhsulu yaradanlar.

Müzakirə etmək zərurətdir, amma bundan vacibi məhsulu yaradacaq səriştəli şəxsləri ortaya çıxaracaq fundamental biliklərdir.

Ali təhsil müəssisələrində innovasiya sisteminin tətbiqi vacibdir.



### İhsan Sabuncuoğlu

"İnnovativ inkişafın 3 əsas tərəfi var. Bu, ictimaiyyət, universitet və tədqiqat mərkəzləri və sənaye dünyasıdır. Bu üçü bir araya gəlib üzərinə düşən rolu oynamalıdır. Biri irəli gedirsə, digəri geridə qalırsa, innovasiya sağlam formada inkişaf etmir. Bu gün dünyada 30 mindən çox universitet var. Lakin 98 faizi hazırkı formatlarından çıxmalı və islahatlar aparılmalıdır.Bu islahatları aparmadıqca, onları lazımi səviyyəyə gətirmək mümkün deyil".

# Bakıda Təhsilin İnkişafı Forumu keçirilib

## Forum Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub

"Təhsildən tərəqqiyə" devizi altında Bakıda Təhsilin İnkişafı Forumu təşkil edilib. Elm və Təhsil Nazirliyi, Təhsilin İnkişafı Fondunun təşkilatçılığı ilə baş tutan tədbir Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub.

Forumda işgüzar əlaqələrin qurulması, birgə layihələrin planlaşdırılması, innovasiya ekosisteminin yaradılması, dövlət - özəl tərəfdaşlığı, təhsil və iqtisadiyyatın inteqrasiyası müzakirə olunub. Panel müzakirələrdə çoxşaxəli suallar səsləndirilib, onlara məraqlı cavablar verilib.

İnnovasiya ekosistemi ətrafında gedən müzakirələrdən biri elm və təhsil nazirinin iştirakı ilə keçib. Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibovun moderatorluğu ilə "İnnovasiya ekosisteminin yaradılması" üzərində qurulan həmin müzakirələrdə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov öz düşüncələrini paylaşıb, sualları cavablandırıblar.




Foruma qatılan Türkiyənin TED Universitetinin rektoru İhsan Sabuncuoğlu çıxışında bildirib ki, Türkiyədə on illərdir davam edən universitet-sənaye əməkdaşlığına cəhdlər belə deməyə əsas verir ki, bu, elə də asan proses deyil. Belə ki, əməkdaşlıq birdən-birə baş vermir. Bunun üçün münbit mühit formalaşdırmalı, ekosistem yaradılmalıdır: "İnnovativ inkişafın 3 əsas tərəfi var. Bu, ictimaiyyət, universitet və tədqiqat mərkəzləri və sənaye dünyasıdır. Bu üçü bir araya gəlib üzərinə düşən rolu oynamalıdır. Biri irəli gedirsə, digəri geridə qalırsa, innovasiya sağlam formada inkişaf etmir. Bu gün dünyada 30 mindən çox universitet var. Lakin 98 faizi hazırkı formatlarından çıxmalı və islahatlar aparılmalıdır.Bu islahatları aparmadıqca, onları lazımi səviyyəyə gətirmək mümkün deyil".

Ardı səh. 2

**Hər müraciət bir yenilikdir** Səh.3

**BMU beynəlxalq reytinqdə irəliləməyi hədəf seçib** Səh.5

**"Şagirdlərimin uğurları üçün yorulmadan çalışıram"** Səh.6

**Uşaqlarla ünsiyyəti elə qurun ki...** Səh.8

# “Təhsildən tərəqqiyə”

## Bakıda Təhsilin İnkişafı Forumu keçirilib

Bu gün işlə təminat məsələsindəki əhatə dairəsi heç də arzuediləni kimi əmək bazarına girən 100 faiz vətəndaşı əhatə etmir. Əhatə dairəmizi artırmağı qarşımıza hədəf qoymuşuq.

Kiçik texnik belə yüksək bacarığı ilə böyük innovasiya edə bilər.

Qazanılan bilik və bacarıqların tətbiqinin imkanları mütləqdir.

Əhalinin məşğulluğu əsas hədəflərdəndir.

Müxtəlif kateqoriyadan olan vətəndaşların hazırlanması vacibdir.

Əvvəli səh. 1

### İnnovasiyaların inkişafı üçün uzun, ya qısa yol?

Elm və təhsil naziri Emin Əmrullayev bu fikirdədir ki, innovasiyanı yaradan təhsilli insandır, o, olmadan innovasiya mümkün deyil: “İnsan zamanla yetişir, onları zamandan sürətli yetişdirmək metodu isə yoxdur”.

O zaman başqa bir sual ortaya çıxır. Təhsildə nailiyyətlər əldə etməyə zaman lazımdırsa, onda qısa və səmərəli yollarla nələri həll edə bilərik? E.Əmrullayev həm qısa, həm uzun yolu göstərir:”İnnovasiyaların uzunmüddətli inkişafından danışırıqsa, məktəblərdən, hətta məktəbəqədər təhsil müəssisələrindən, qısa müddətdə innovativ inkişafdan danışırıqsa, əsasən ali təhsil müəssisələrindən söhbət gedir”.

### İnnovativ inkişafda iki istiqamət

İnkişafın da iki istiqamətini göstərən nazir riskləri, səhvləri həyatımızın nə qədər mərkəzinə qoymağımızın önəminə diqqət çəkib: “Birinci istiqamət ümumi davranış, münasibətlər, dəyərlər prizmasıdır. Yəni bizim baxışımız innovativ düşüncəni nə qədər dəstəkləyir?!”

Nazirin fikrincə, innovativ inkişaf risklə bağlıdır. Riski sevmirsənsə, innovasiya ilə məşğul olmaq çətindir: “İkinci bir məsələ, səhv etmək və səhvlərə olan münasibətdir. Səhv etmək çox vacib öyrənmə elementidir. Şagird səhvi üzərindən daha yaxşı öyrənir. Səhv etməkdən qorxan, başqasının səhvini qabardıb heç nə etməyən insanlarla innovasiya etmək çətindir. Uşaqlarımıza qorxmadan cəhd etməyi aşılasaq, daha yaxşı nəticələr əldə etmək olar”.

Risk və səhv etməkdən qorxmayan insandan başqa, bir də səriştəlilər var: “Həqiqətən səriştəli bir adam innovasiya edə bilər. Bu da özlüyündə iki yanaşmaya ayrıla bilər. Son dövrlərin startaplarının bir qismi sadə bacarıq üzərində yaranıb. Bu, başqasına satmaq bacarığıdır. Geniş anlamda satmaq bacarığı da vacibdir. Bəzi hallarda nəyisə satmaq, kimdənsə pul istəmək ayıb hesab edilməməlidir. İnnovasiyaların bir qismi buradan yaranır. Satışda, marketinqdə bacarığı olanlar daha çox mənfəət əldə edirlər, nəinki məhsulu yaradanlar”.

Məhsul yaratmaq isə ikinici vacib istiqamətdir. Amma bu istiqamətin inkişafı üçün danışmaq, müzakirə eləməklə iş görmək olmaz: “Yığışıb innovasiyalardan danışmaqla innovasiyalar yaradılmayacaq. Müzakirə etmək zərurətdir, amma bundan vacibi məhsulu yaradacaq səriştəli şəxsləri ortaya çıxaracaq fundamental biliklərdir. Ona görə çalışırıq ki, daha çox uşaq məktəbəqədər təhsilə getsin, daha çox uşaq rəqəmsal bacarıqlara cəlb olunsun. Məktəblərdə STEAM kabinetləri yaradılır. Ola bilsin ki, işlərimiz yavaş gedir. Lakin əvvəlki onilliklə müqayisədə daha yaxşı yerdəyik”.

### “Ali təhsil müəssisələrində innovasiya sisteminin tətbiqi vacibdir”

Ali təhsil müəssisələrində isə səriştəlilik bacarığı artıb. Emin Əmrullayevin fikrincə, Azərbaycanın 3 universitetinin qarşıdakı bir neçə il ərzində top 800 universitet sırasına düşəcəyi proqnozlaşdırılır. Odur ki, bilik paylaşan müəssisələrdən bilik yaradan müəssisələrə inteqrasiya etməliyik: “Hər il ölkədə 55 minə yaxın şəxs bakalavr, 10 min nəfər isə magistr təhsili alır və bu rəqəmlər getdikcə artacaq: “Ali təhsil müəssisələrində innovasiya sisteminin tətbiqi vacibdir”.

Son illərdə ali təhsil alanların sayı 3 dəfə artıb. “Yaxşı kadr üçün 10 min avro ödədiyimiz proqramlar var” - deyən Emin Əmrullayevin sözlərinə görə, ali təhsil müəssisəsinə az resurs verib, dünya səviyyəli innovasiya tələb etmək doğru yanaşma deyil: “Kompüter mühəndisi 4000 manata yaxın əməkhaqqı alır. Bu gün “dünyada rəqabətədavamlı kompüter mühəndisi hazırlamaq neçəyə başa gələr?” sualının cavabı daha maraqlıdır. Düşünmək lazımdır ki, 1500 manata 10 min avro xərc tələb olunan həmin ixtisas üzrə, heç olmasa, ona bərabər və ya yaxşı mühəndis yetişdirmək mümkündürmü?”

Nəinki yaxşı mühəndis, işinin peşəkarı olan ağac budayana belə tələbat var. Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev məhz bu məqama diqqət çəkib: “Hamı mütəxəssis axtarır. Özəl sektor da həmin şəxslərə ehtiyac duyur. Ali təhsil müəssisələri ehtiyacdan çox hüquqşünas yetişdirir, ehtiyac isə aqronomadır”.










### “Əhatə dairəmizi artırmağı qarşımıza hədəf qoymuşuq”

Ona görə də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tələbləri işəgötürənlərdən alır: “Bu gün işlə təminat məsələsindəki əhatə dairəsi heç də arzuediləni kimi əmək bazarına girən 100 faiz vətəndaşı əhatə etmir. Qarşımızda duran ən böyük çağırış da budur. Əhatə dairəmizi artırmağı qarşımıza hədəf qoymuşuq”.

Sahil Babayevin fikrincə, yüksək texnologiyalar sahəsində hər zaman inkişaf var. Lakin sırf bu peşə yönünə köklənmək doğru olmaz. Misal olaraq, kiçik texnik belə yüksək bacarığı ilə böyük innovasiya edə bilər”.

Sahil Babayevin sözlərinə görə, bu gün dünya alternativ enerjidən danışır, halbuki əvvəl bu sahəyə bugünkü qədər kadr lazım deyildi: “Yəni, hər dövrün öz tələbi var. Müxtəlif istiqamətlərdə ssenarilərimiz olmalıdır. Qazanılan bilik və bacarıqların tətbiqinin imkanları mütləqdir. Etiraf edək ki, sovet dövründə nəzəri baxımdan təhsil Qərb təhsilindən kifayət qədər güclü idi. Lakin tətbiqi iş praktiki təcrübədən sonra mümkün idi”.

Təhsil sahəsində konsepsiyaların tətbiqini daha önəmli sayan S.Babayev əmindir: “Əhalinin məşğulluğu əsas hədəflərdəndir. Müxtəlif kateqoriyadan olan vətəndaşların hazırlanması vacibdir. Gələcək dövrdə kadr ehtiyacının tələblərə görə artıb-azaldığını görəcəyik”.

### İqtisadiyyat Nazirliyində innovativ tərəqqi üçün qanuni baza hazırlanır

İnnovativ fəaliyyətlər İqtisadiyyat Nazirliyində də vacib istiqamətdir. Belə ki, artıq innovativ tərəqqi üçün qanuni baza üzərində iş gedir. “İnnovativ fəaliyyətlər” haqqında qanun layihəsindən danışan iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev hazırda layihə şəklində olan sənədin yaxın zamanda müvafiq dairələrə təqdim olunacağını deyib: “İnnovativ fəaliyyətlərin çərçivələrini müəyyənləşdiririk. Bundan doğan strategiyanın olması və fəaliyyətin tənzimlənməsi zəruri olacaq”.

### Universitet - sənaye tərəfdaşlığı

İkinci paneldən öncə “Bilişim Vadisi” Texnoparkının baş icraçı direktorunun müavini Tuba Öztepe məruzə ilə çıxış edib.

“SABAH.HUB”ın icraçı direktoru Rəhim Bayramlının moderatorluğu ilə keçirilən ikinci paneldə Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, “BP Azerbaijan” şirkətinin Xəzər regionunda xarici əlaqələr və kommunikasiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, “NEQSOL Holding”in baş direktoru Yusif Cabbarov, Azərbaycan Beynəlxalq Bankı İdarə Heyətinin sədri Abbas İbrahimov, Sumqayıt Texnologiyalar Parkının baş insan resursları inzibatçısı Şölə Əliyeva spiker qismində çıxış ediblər. Panel çərçivəsində təhsil və əmək bazarı, sənaye ilə tərəfdaşlıq strategiyası, sənayenin təhsildən gözləntiləri, əlavə dəyərin yaradılması, ekosistemin inkişafında bankların rolu, təhsil ilə iqtisadiyyatın inteqrasiyası, tədqiqat və inkişaf ekosistemi mövzuları ətrafında müzakirələr aparılıb.

### Forumun üçüncü panelində “Gələcək üçün təhsil” müzakirə edilib

Paneldən əvvəl ABŞ-nin “Coursera” şirkətinin baş müşaviri Çad Paşa məruzə ilə çıxış edib. Daha sonra ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin moderatorluğu ilə keçirilən paneldə Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov, Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev, Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli, “212” şirkətinin baş direktoru Numan Numan, TED Universitetinin Tədqiqat, texnologiya və innovasiyalar bölməsinin direktoru Sanem Yalçıntaş spiker qismində çıxış ediblər. Panel çərçivəsində ömürboyu təhsil, əmək bazarının dəyişən tələbləri, süni intellekt və təhsil mövzularından bəhs olunub.

Qeyd edək ki, Foruma “NEQSOL Holding”, “British Petroleum” şirkəti, SOCAR, Sumqayıt Texnologiyalar Parkı, Azərbaycan Beynəlxalq Bankı, “Azersun Holding” və “BestComp Group” sponsorluğu ilə keçirilib.

**Ruhiyyə DAŞSALAHLI**

# Hər müraciət bir yenilikdir

## Elm və Təhsil Nazirliyi vətəndaş müraciətlərinə həssas yanaşır



Çağrı mərkəzləri, ASAN Xidmət mərkəzlərində təşkil edilən elektron xidmətlər, elektron müraciət imkanı yaradan *portal.edu.az*, həmçinin “Whatsapp” və sosial media platformaları. Bütün bu vasitələrdən istifadə edərək Elm və Təhsil Nazirliyinə üz tutanlar hər gün minlərlə müraciətin harada toplandığını, kimin əlindən keçdiyini düşünmür. Çoxumuz yığdığımız üçrəqəmli nömrələrə cavab verən həzin, mülayim, sakit səsin sahibi ilə də maraqlanmır. Nəyinə lazımdır, elə deyil? Onu, sadəcə qarşılaşdığı problem və çıxış yolu narahat edir. Müraciətini göndərir, cavabını gözləyir.

Amma “Azərbaycan müəllimi” qəzeti üçün maraqlıdır. Çoxçeşidli platformalarla bu qədər geniş auditoriyadan göndərilən müraciətlər harada araşdırılır, necə cavablandırılır? Bu auditoriyanın, ümumilikdə 2.4 milyon insanı əhatə edən təhsil sistemi olduğunu nəzərə alsaq, üstəlik, sistemdəki ailələrini, yaxınlarını, valideynlərini də hesaba qatsaq, mənzərənin ciddiliyi nəzərimizdə aydınlaşar.

Gəlin görək, təhsil sistemində müraciətləri araşdıran və cavablandıran şəxslər kimlərdir?

### Elm və Təhsil Nazirliyi ilə vətəndaşlar arasındakı körpü

Onlar İnformasiya və vətəndaşlara xidmət şöbəsində birləşiblər. Bu şöbə təhsil sistemi ilə və vətəndaş arasında “körpüdür”.

Elm və təhsil sistemində vətəndaşlar üçün çətinliyə çevrilən məsələləri həll etmək üçün şöbənin vətəndaş xidmətləri çox genişdir.

### Vətəndaşların qəbulu mərkəzində: ÜZ-ÜZƏ

Beləliklə, “Azərbaycan müəllimi” nazirliyə üz tutanların girdiyi ilk qapıdadır. Burada vətəndaşların qəbulu həyata keçirilir. Elm və Təhsil Nazirliyində şagird yerdəyişməsinin hələ başlamadığı günlərdən birinə təsadüf etdiyindən, bu zalın nisbətən sakit olduğu günlərdən biridir. Amma vətəndaşların suallarının cavablandırıldığı 6 masanın hamısı doludur. Məsələn, masalardan birində cavab gözləyən Sevda Sadıqova nazirliyə yaranmış çətinliyə görə gəlib. Sabirabad rayonunda yaşayan qardaşı Türkədi kənd şəhid Ramin Məmmədov adına tam orta məktəbin VIII sinfində oxuyan oğlunun təhsilinə görə narahatdır. Çünki oğlu bir il gec qeydiyyatdan keçib: “Uşaq bacısı ilə eyni sinfə gedib, hətta bacısından da yaxşı oxuyur. Ancaq valideynə xəbər veriblər ki, oğlan məktəbə vaxtında qeyd olunmayıb. Yəni faktiki VIII sinifdə oxuyan uşaq məktəbin qeydiyyatında VII sinif şagirdidir. Baş verən çətinliyi nazirliyə çatdırmağa gəlmişəm”.

Səidə Quliyeva 2006-2012-ci illərdə Kazan Dövlət Tibb Universitetində təhsil alıb.Təhsilini tamamladıqdan sonra Azərbaycana qayıdıb və həmin vaxt diplomu təsdiq olunub. Lakin həmin təsdiq itdiyindən yenidən sənədlərini toplayaraq Elm və Təhsil Nazirliyinə müraciət edib.

Məsumə Əhmədova övladını məktəbəqədər hazırlıq qruplarına qeyd etməyə gecikib. Bakıxanov qəsəbəsində yaşayan ailə nazirliyə müraciət edib: “Gəldim ki, oğlum məktəbdən qalmasın və nazirlik onun məktəbəqədər qruplarda təhsilə başlaması üçün mənə kömək etsin”.

Zemfira Abdullayeva nəvəsinə görə buradadır: “Nəvəm Sevər Həsənzadə Astara Pedaqoji Kollecində oxuyub. Forte-piano üzrə ixtisası bitirər-bitirməz ailə qurub və diplomunu almayıb. Həmin ixtisas bağlandığı üçün o, diplom üçün nazirliyə müraciət edib. Nəvəm Astarada yaşayır və biri 3, o biri 4 yaşında 2 uşağı var. Uşaqlar böyüyüb və nəvəm artıq çalışmaq istəyir”.



Gülər Quliyeva MİQ-də iştirak edərək 50 bal toplayıb və müddətli müqavilə ilə Bilgəh qəsəbəsində ona iş təklif olunub. Təklifi qəbul edərək 11 nömrəli inteqrasiya təlimli internat məktəbində ingilis dili müəllimliyinə başlayıb: “Sənədlərimi məktəbə təqdim etdim, 2 həftədir dərs də deyirəm, amma şəxsi kabinetimə indiyədək təsdiq gəlməyib”.

Ceyhun Heydərov Düzcə Universitetində Turizm ixtisası üzrə III kurs tələbəsidir. Növbəti tədris ilindən Azərbaycana köçürülmək istəyir: “Xaricdə təhsil almaq arzusu ilə bu universiteti seçmişdim. Amma ailə vəziyyəti ilə əlaqədar artıq təhsilimi xaricdə davam etdirə bilməyəcəyəm. Ona görə də ixtisasım üzrə Azərbaycandakı universitetlərdə davam etməyi düşünürəm. Bunun mümkün olması üçün məndən nə tələb olunur, öyrənməyə gəldim”.

C.Heydərovu 6-cı masada qəbul edən İnformasiya və vətəndaşlara xidmət şöbəsinin əməkdaşı Mikayıl Allahverdiyev ona məlumat verir ki, tələbələrin köçürülməsi həyata keçirilən zaman *transfer.edu.az* portalından elektron qaydada müraciət edə bilər. “Köçürülmənin başlanma vaxtı barədə nazirliyin rəsmi saytında məlumat veriləcək”.

İnformasiya və vətəndaşlara xidmət şöbəsinin Vətəndaşların qəbulu Mərkəzinin rəhbəri Rəşad Nəsibov bu mərkəz haqqında: “Elm və təhsil sahəsində çətinliyi yaranan və bizə üz tutan vətəndaşlara əlimizdən gələn köməyi əsirgəmirik”.

R.Nəsibov iş yükünü belə izah edib: “Müşahidələr göstərir ki, insanlar üz-üzə münasibətlərə daha çox üstünlük verirlər. Bu il ərzində 16 mindən çox müraciət qəbul etmişik. Onların arasında şəhid ailələri, qazilər, müharibə veteranları, hərbçilər olub ki, onları hər zaman növbədənkənar qəbul edirik. Çalışırıq ki, problemlərinə daha həssas yanaşaq, gözlətməyək və qarşılaşdıqları çətinliklərin asan yolla həllini göstərək”.

R.Nəsibov özlərinin qarşılaşdıqları çətinliklərdən də danışıb: “Bəzi hallarda qəbul mərkəzlərinə bir vətəndaşın məsələsinə görə başqası, üçüncü şəxslər gəlir və nəticədə kömək etməyimiz çətinləşir”.

O qeyd edib ki, Elm və Təhsil Nazirliyi humanistliyinə, vətəndaşyönümlü olduğuna görə dövlət qurumları arasında ilk sıralarda yer alır: “Problemi qanunvericilik əsasında vətəndaşın xeyrinə həll etmək üçün əlimizdə alternativ variant varsa, ondan mütləq istifadə edirik ki, vətəndaş məmnun qalsın”.

### 146 Çağrı Mərkəzinə xoş gəlmisiniz!

“Elm və Təhsil Nazirliyinin 146 Çağrı Mərkəzinə xoş gəlmisiniz”!

Bu 3 rəqəmi daxil edən kimi eşitdiyimiz səs sonrakı prosesi idarə edir, hansı rəqəmin nazirliyin hansı tabe qurumuna çıxış imkanı yaratdığını söyləyir.

Bu, Elm və Təhsil Nazirliyinin vətəndaşlarla təqdim etdiyi xidmətlərdən biri olan Çağrı Mərkəzidir. Operativlik və vətəndaşların çevik məlumatlandırılması baxımından önəmli rol oynayan Çağrı mərkəzlərinin də son illərdə fəaliyyət dairəsi kifayət qədər genişlənib. Əvvəllər, sadəcə 1 xətt - 146-1 fəaliyyət göstərir, bütün müraciətlər bura daxil olurdu, hazırda 9 istiqamət üzrə Çağrı mərkəzi fəaliyyət göstərir. Artıq nəinki nazirliyin tabe qurumlarının, hətta regional təhsil idarələrində də Çağrı mərkəzləri yaradılıb.Operatorlardan biri, Aidə Əsədullayeva “146” yığanlara 1 ildir cavab verir. Operator olduğu müddətdə onunla əsəbi danışanlar da olub, “sizinlə fəxr edirik” deyənlər də. Xoş söz deyənlər onu nə qədər qürurlandırsa da, əsəbi danışanlara isə xüsusi yanaşaraq müraciətləri cavablandırıb. Eyni zamanda: “Stressin idarə edilməsi üzrə xüsusi təlimlər keçirik. Onlarla mehriban danışır, problemlərinin həlli yollarını axtarırıq”.

Hazırda “146” Çağrı Mərkəzinə Nərmin Şəfizadə rəhbərlik edir. 146-6 komandasında 10 nəfərdirlər və vətəndaşların suallarına cavab verirlər.

Onlar qanunla müəyyən olunmuş iş günlərində səhər 9.00-dan axşam 18.00-dək fasiləsiz işləyirlər. Buna baxmayaraq, “146-6” Çağrı Mərkəzinə düşmək asan deyil”, - deyə qeyd edənlər hələ də tapılır. Yeri gəlmişkən, “Azərbaycan müəllimi” “146-6”-nı yoxladı və cəmi 1 dəqiqə içərisində “Nərmin buyurun” səsini eşitdi. Odur ki, tövsiyə edirik, Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzindən istifadə edin, əmin olun ki, əməkdaşlar sizə mütləq cavab verəcək.

### Elektron müraciətlərə 3-5 iş günü cavab verilir

Vətəndaş məmnuniyyətinə nail olmaq üçün suallara vaxtında cavab tapmaq və müdaxilə etmək vacibdir. Ona görə də, Nazirlik vətəndaşlarla əlaqə kanallarını daim genişləndirir. Bu çevik və operativ kanallardan biri də elektron müraciətlərdir.

Elektron müraciətlər *portal.edu.az* saytının vətəndaş müraciətləri bölməsi vasitəsilə aparılır, tətbiq olunmuş təkmil daxili sistem hesabına daha qısa zaman çərçivəsində müraciətlər aidiyyəti struktur bölmələrə yönləndirilir və cavablandırılır.

Elektron müraciətlərin hərəkət trayektoriyası vətəndaşlar tərəfindən izlənilə bilir. *Portal.edu.az* platformasından vahid bazaya toplanan müraciətləri oxuduqdan sonra müvafiq sahələr üzrə mütəxəssislər onları cavablandırır. Rəhbər şəxslərin təsdiqindən sonra vətəndaşa SMS vasitəsilə bildiriş göndərilir və vətəndaş portal.edu.az platformasındakı şəxsi kabinetində “Mənim müraciətim” bölməsinə daxil olaraq həmin cavabı görə bilər. İnformasiya və vətəndaşlara xidmət şöbəsinin əməkdaşı Aysel Orucova deyir ki, təhlillər onu göstərir ki, son zamanlar vətəndaşlar yazılı müraciətlərdən çox elektron müraciətlərə üstünlük verirlər. “Elektron müraciətlər 3-5 iş günü ərzində cavablandırılmalı, vətəndaşa təqdim edilməlidir. Ona görə də vətəndaşlar müraciətlərinə cavabları daha tez alırlar.

### “Sosial media və WhatsApp xidməti”

2021-ci ilin aprel ayından etibarən nazirliyin rəsmi “WhatsApp” xidməti yaradılıb. O vaxtdan başlayaraq peşəkar mütəxəssislər həm “WhatsApp”, həm də sosial media platformaları vasitəsilə daxil olan müraciətləri dərhal cavablandırırlar.

Qeyd edək ki, Elm və Təhsil Nazirliyi rəsmi “WhatsApp” lisenziyalı biznes hesabı vasitəsilə vətəndaşların müraciətlərini cavablandıran ilk dövlət qurumudur.

### Nazir nə vaxt qəbul edir?

Vətəndaşlar təhsilə dair müraciətlərini, təkliflərini həm yuxarıda qeyd olunan kommunikasiya kanallarından istifadə edərək, həm də birbaşa rəhbər şəxslərə ünvanlaya bilərlər. Belə ki, Elm və Təhsil Nazirliyinin bütün rəhbər vəzifəli şəxsləri, tabe qurumlarının rəhbərlərinin həftəlik və aylıq əsasda vətəndaş qəbulları təşkil olunur. Qəbula 146-6 çağrı mərkəzi vasitəsilə, “WhatsApp xidməti”və portal.edu.az platformasından yazılmaq mümkündür. Nazirin qəbulu ayda 1 dəfə bölgələr üzrə keçirilir.

### Nazirliyə vətəndaş müraciəti var

Elm və Təhsil Nazirliyinə elektron müraciətlərlə yanaşı yazılı müraciətlər də daxil olur. İnformasiya və vətəndaşlara xidmət şöbəsinin əməkdaşı Təbriz Nəsibov “Azərbaycan müəllimi” qəzetinə yazılı müraciətlərin sistem daxilində keçdiyi yoldan danışıb: “Daxil olan məktublar qeydiyyata alınır, icraçılara yönləndirilir və elə yazılı olaraq da cavablandırılır”.

Yazılı müraciətlərin elektron müraciətlərdən fərqli olaraq baxılma müddəti 15 iş günü təşkil edir: “Müraciətdən asılı olaraq, daha tez cavablandırılanlar da olur. Məlumat xarakterli müraciətlər araşdırma tələb edən məsələlərlə müqayisədə daha tez cavablandırılır”.

Onun məsləhəti də var: “Məsləhət görərdik ki, yazılı müraciətlərdə əlaqə vasitələrini, ünvanlarını və müraciətin məzmununu dəqiq qeyd etsinlər. Çox zaman yazılı müraciətlərdə ünvanın düzgün qeyd olunmaması, əlaqə vasitələrinin yazılmaması kimi hallarla rastlaşırıq”.

Bu ilin ilk 9 ayı ərzində nazirliyin ünvanına 18337 vətəndaş müraciəti daxil olub.

Sara Mirzəyeva İnformasiya və vətəndaşlara xidmət şöbəsinin Dəftərxana sektorunun əməkdaşıdır. Vətəndaş müraciətlərini, elektron sənəd dövriyyəsi ilə daxil olan məlumatları təhlil edir: “Daxil olan məlumatların mütəmadi olaraq analitik təhlilini aparırıq. Bura həm vətəndaşlardan daxil olan müraciətlər, həm də digər qurum və təşkilatlardan daxil olan müraciətlərin təhlili daxildir. Vaxtaşırı hesabatlar aparılır, nazirliyə daxil olan sənədlərin dövriyyəsi təşkil olunur, elektron sənəd dövriyyə sisteminin təkmilləşdirilməsi həyata keçirilir. Əldə olunan məlumatların təhlili növbəti qərarvermə prosesində önəmli rol oynayır, sistemlərin təşkil olunmasına və təkmilləşdirilməsinə səbəb olur. Bu nəticələrə əsaslanaraq deyə bilərəm ki, gördüyüm iş faydalı və maraqlıdır”.

Ardı səh. 4

# Həssas yanaşma, vətəndaş məmnunluğu

## Elm və təhsil naziri Şirvanda vətəndaşları qəbul edib





Oktyabrın 27-də elm və təhsil naziri Emin Əmrullayev Şirvan şəhərində vətəndaşları qəbul edib. Qəbulda Şirvan, Hacıqabul, Salyan, Neftçala və Biləsuvar sakinləri iştirak ediblər.

Qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Qəbulda vətəndaşlar müəllimlərin işə qəbulu və yerdəyişməsi, iş yerinin daimiləşməsi, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

# MDU-nun rektoru Qırğız İqtisad Universitetinin fəxri professoru adına layiq görülüb



Mingəçevir Dövlət Universitetinin (MDU) rektoru Şahin Bayramov M.Rıskulbekov adına Qırğız İqtisad Universitetinin (KEU) fəxri professoru adına layiq görülüb. KEU Elmi Şurasının bununla bağlı müvafiq qərarı MDU rektorunun universitetlərarası əməkdaşlığın inkişafına verdiyi töhfələrə, eləcə də onun elm və təhsil sahəsində əldə etdiyi nailiyyətlərə əsasən qəbul edilib. Bu barədə Mingəçevir Dövlət Universitetinin mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, 2022-ci ilin sentyabrında Bişkekdə Dünya Rektorlar Forumunda Ş.Bayramovun iştirakı ilə MDU və KEU arasında anlaşma memorandumu imzalanıb. MDU rektoru KEU-nun geniş tərkibdə rəhbər heyəti ilə görüşlər keçirib və qarşılıqlı faydalı əməkdaşlığın inkişafı ilə bağlı müzakirələrdə fəal iştirak edib. Bununla yanaşı, Ş.Bayramov KEU kollektivi qarşısında “Yeni dövrün universitetinin qurulması” mövzusunda keçirilən seminarda rəhbərlik etdiyi ali təhsil müəssisəsinin təcrübəsini bölüşüb. Bundan əlavə, 2022-ci ilin dekabrında MDU-da keçirilən “Yeni dövrdə təhsil və tədqiqat fəaliyyəti: reallıqlar və çağırışlar” mövzusunda, eləcə də 2023-cü ilin dekabrında keçiriləcək “Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər” mövzusunda beynəlxalq elmi konfranslara KEU-nun tərəfdaşlıq etməsində MDU rektorunun rolu müsbət dəyərləndirilib. Eyni zamanda, MDU rektoru və onun rəhbərlik etdiyi professor-müəllim heyəti üzvlərinin 2023-cü ilin oktyabrında KEU-da keçirilən “İqtisadi reallıqların yeni çağırışları” mövzusunda beynəlxalq elmi konfransın plenar və bölmə iclaslarında çıxış edərək bu elmi tədbirin işinə əhəmiyyətli töhfə verdikləri diqqətə çatdırılıb.

Qeyd edək ki, MDU rektoru Ş.Bayramova fəxri professor diplomu oktyabrın 25-də Qırğız İqtisad Universitetinin 70 illiyinə həsr olunan təntənəli yubiley mərasimində iştirakı zamanı təqdim edilib.

# Hər müraciət bir yenilikdir

## Elm və Təhsil Nazirliyi vətəndaş müraciətlərinə həssas yanaşır

Əvvəli səh. 3

**“ASAN”-laşan elm və təhsil xidmətləri**

Elm və təhsil sahəsi ilə bağlı vətəndaşların istifadəsində olan daha 10 xidmət Elm və Təhsil Nazirliyi ilə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (ASAN) arasında qarşılıqlı əməkdaşlığa dair Anlaşma Memorandumu çərçivəsində 2022-ci ilin aprel ayından başlayaraq “ASAN Xidmət” mərkəzlərində göstərilir. Bakıda və regionlarda olmaqla ümumilikdə 16 “ASAN Xidmət” Mərkəzində elm və təhsil xidmətləri həyata keçirilir və vətəndaşlara göstərilən xidmətin əlçatanlığının artırılması məqsədi daşıyır.

**Əksər təhsil xidmətləri elektronlaşdırılaraq bir platformada təqdim olunur**

Yazılı müraciətlərin olmasına baxmayaraq, müraciətçilər daha çox elektron üsullara üstünlük verir. Məsələn, 2022-ci ildə vətəndaşlardan 27461 yazılı, 32138 elektron müraciət daxil olub və cavablandırılıb. 2023-cü ilin ilk 9 ayı ərzində 18337 yazılı, 30716 elektron, Çağrı mərkəzləri vasitəsilə 300 mindən çox, vətəndaş qəbulu və “ASAN Xidmət” mərkəzlərində 30000-dən çox, “Sosial Media - WhatsApp” Xidməti vasitəsilə 105000-dən çox vətəndaş müraciətləri cavablandırılıb.

Rəqəmlərdən göründüyü kimi, Elm və Təhsil Nazirliyi də operativliyi, şəffaflığı təmin etmək üçün elektron xidmətlərdən aktiv istifadə edir.Nazirliyin İnformasiya və vətəndaşlara xidmət şöbəsinin əməkdaşı Həmid Qasımov elektron xidmətlərə əhəmiyyət verdiklərini təsdiqləyir. Onun sözlərinə görə, “hazırda vətəndaşlara təqdim olunan əksər xidmətlər elektronlaşdırılaraq *portal.edu.az* platformasında birləşib. Həmin xidmətlərə “Ali və orta ixtisas təhsili müəssisələrinə təhsilalan qeydiyyatı”, “Əlavə təhsilə elektron sənəd qəbulu”, “Peşə təhsil müəssisələrinə işə qəbul”, “Arayış əldə etmək üçün müraciət” və s daxildir. Beləliklə, vətəndaşlar onlayn formatda portal.edu.az plaftomasına bir mənbədən daxil olaraq xidmətlərdən istifadə edə bilərlər”.

**Vətəndaşa xidmət edən komanda davamlı təlimləndirilir**

Nazirlikdə vətəndaşlarla kommunikasiya vasitələri uğurla qurulduğu kimi, komandanın hazırlığına da xüsusi əhəmiyyət verilir. İnformasiya və vətəndaşlara xidmət şöbəsinin əməkdaşı Altun Rəcəblinin sözlərinə görə, əməkdaşların təcrübə və bilikləri ilə yanaşı, onların psixoloji hazırlıqları, kommunikasiya və problem həlletmə bacarıqları, yüksək etik standartlara yiyələnmələri də önəmli faktorlardır: “Bütün bu göstəriciləri ölçmək üçün tərtib edilən meyarlar var. Buraya dinləmə bacarığı, empatiya, müzakirə və problemi həlletmə bacarığı, effektiv həll təklifləri kimi keyfiyyətlər aiddir: “Əməkdaşlarımızın həmin meyarlara cavab verməsini təmin etmək məqsədilə vaxtaşırı “Vətəndaş qəbulunun əsasları”, “Vətəndaş məmnunluğunun idarə olunması” mövzularında təlimlər təşkil edirik. Bu təlimlərdə Elm və Təhsil Nazirliyinin və regional təhsil idarələrinin əməkdaşları ilə yanaşı, məktəb direktorları, direktor müavinləri, ali təhsil müəssisələrinin əməkdaşları da iştirak edirlər”.

A.Rəcəbli məlumat verib ki, Elm və Təhsil Nazirliyinin təşəbbüsü ilə “ASAN” İnnovativ İnkişaf Mərkəzində son 1 il ərzində, ümumilikdə 1500-dən çox təhsil işçisinə, məktəb direktorları, direktor müavinləri, məktəbəqədər təhsil müəssisələrinin müdirləri, regional təhsil idarələrinin əməkdaşlarına maarifləndirici təlimlər keçilib.

**Keyfiyyəti daha da artırmaq hədəfdir**

Şöbə əməkdaşlarını, sadəcə təlimləndirməklə kifayətlənmir, həm də göstərdiyi xidmətə nəzarət edir. İnformasiya və vətəndaşlara xidmət şöbəsinin müdir müavini Səbuhi Rzayev müraciətlərin hansı kommunikasiya kanalından daxil olduğundan asılı olmayaraq, hər bir müraciətə eyni həssaslıqla yanaşıldığını vurğulayıb: “Daxil olan müraciətlərin izlənilməsi və maneəsiz informasiya axınının təmin edilməsi üçün qabaqcıl proqram təminatından istifadə edirik. Həmin sistem vasitəsilə müraciətlər yönləndirilir, proses müəyyən ardıcıllığa uyğun olaraq aparılır. Təmin edilən informasiyanın dəqiqliyindən və etibarlılığından əmin olmaq üçün müntəzəm olaraq yoxlanılır. Müraciətlərin cavablandırılmasında keyfiyyəti artırmaq üçün monitorinq prosesi davam edəcək”.

S.Rzayevin fikrincə, hər müraciət həm də yenilik və inkişaf üçün bir fürsətdir: “Vətəndaşların özlərini prosesin fəal iştirakçısı kimi görməsini təmin etməyə çalışırıq. Bu baxımdan sosial şəbəkələri misal çəkə bilərik. Həmin platformalar vasitəsilə hər bir vətəndaş öz təklif və iradlarını bildirir və onların şərhləri hər kəsə açıq şəkildə görünür. Vaxtaşırı məmnuniyyət sorğuları keçirilir, nəticələrə əsasən təkmilləşdirilmə işləri aparılır. Bütün kanallar üzrə daxil olan vətəndaş müraciətlərinin həftəlik, aylıq, rüblük və illik əsasda statistik təhlilləri aparılır. Bu təhlillər eyni zamanda mövzular, istiqamətlər, regionlar üzrə həyata keçirilir və rəhbərliyə təqdim olunur. Beləliklə, nəticələr əsasında müvafiq tapşırıqlar verilir”.

**Vətəndaş qəbulunda yeniliklər**

Nazirlik vətəndaş məmnuniyyətinin artırılması istiqamətində bir sıra yeniliklər planlaşdırır. İnformasiya və vətəndaşlara xidmət şöbəsinin müdiri Rəşad Xanlarovun sözlərinə görə, ilk növbədə, yeni yaradılan Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin və Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Vətəndaşlara Xidmət mərkəzləri, Çağrı mərkəzləri yaradılacaq: “Elm və təhsilə dair bütün xidmətləri agentliklərdə də təşkil olunacaq. Elm və Təhsil Nazirliyindən verilən müxtəlif təhsil arayışların elektronlaşdırılması prosesi davam etdiriləcək.. Bu həm vətəndaşın rahatlığı, həm də sənədlərin operativ təmin olunması baxımından çox faydalıdır”.



Nazirliyin tabe qurumlarında və regionlarda vətəndaşlara xidmət keyfiyyətini artırmaq məqsədilə monitorinq prosesi gücləndiriləcək: “Həmçinin, “ASAN Xidmət” mərkəzləri ilə əməkdaşlığımızı daha da genişləndirəcəyik. Çağrı mərkəzləri şəbəkəsinin genişlənməsi prosesi çərçivəsində olmayan regional təhsil idarələrində mərkəzlər yaradılacaq. Bununla yanaşı, vətəndaşların xidmətlər barədə rəylərini, təklif və şikayətlərini daha operativ şəkildə bildirmələri üçün istifadə etdiyimiz üsulları daha da təkmilləşdirəcək, xidmət keyfiyyətini artıracağıq.

**Müraciətiniz uğurla, operativ cavablansın deyə...**

Sualların vaxtında cavablanması üçün vətəndaşların da diqqət etməli olduğu məqamlar var. Məsələn, nazirliyin göstərdiyi hər xidmətlə bağlı edu.gov.az rəsmi saytında xidmətlər səhifəsi, sual-cavab, təqvim və əlaqə bölməsi mövcuddur. Həmin bölmələrlə tanış olmaqla sizi düşündürən məqamlara aydınlıq gətirə bilər, təhsil sistemində qarşılaşacağınız çətinliyin həllinə cavab tapa bilərsiniz.

Elektron müraciət edərkən məzmunun dəqiq qeyd edilməsi, müraciətlərinin cavablandırılmasını sürətləndirir.

Və unutmayın. Yaşadığınız regionda da sizə xidmət edən regional təhsil idarələri və “ASAN Xidmət” Mərkəzləri var.

**Ruhiyyə DAŞSALAHLI**

# Elm və Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının Ticarət Nazirliyi arasında müqavilə imzalanıb



Oktyabrın 26-da Elm və Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının Ticarət Nazirliyi arasında "Naxçıvan Muxtar Respublikasına interaktiv təhsil yardımı" layihəsinə dair müqavilə imzalanıb.

Müqavilə elm və təhsil naziri Emin Əmrullayev və Çin Xalq Respublikasının fövqəladə və səlahiyyətli səfiri Guo Min tərəfindən imzalanıb.

Qeyd edək ki, sözügedən müqavilə Çin Xalq Respublikası hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında bağlanmış texniki-iqtisadi əməkdaşlıq haqqında sazişlər çərçivəsində imzalanıb. Müqaviləyə əsasən Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi, həmçinin nazirliyə tabe müəssisələrin texniki infrastrukturunun qurulması, data mərkəzi və elektron platformanın yaradılması nəzərdə tutulur.

## Fənn müsabiqələrinin təşkili və keçirilməsində dəyişikliklər edilib

2023-2024-cü tədris ilində VI-VII sinif şagirdləri arasında keçirilən fənn müsabiqələrinin təşkili və keçirilməsi qaydalarında dəyişikliklər edilib. Belə ki, VI sinif şagirdləri üçün müsabiqələr riyaziyyat, informatika və təbiət fənləri, VII sinif şagirdləri üçün isə riyaziyyat, fizika, kimya və biologiya fənləri üzrə təşkil olunacaq.

İnformatika fənni üzrə müsabiqələrdə iştirak etmək istəyən VII sinif şagirdləri Elm və Təhsil Nazirliyinin "Azercell Telecom" şirkəti ilə əməkdaşlığı çərçivəsində keçirilən "Azercell CUP" müsabiqəsinə qoşula biləcəklər.

Bununla yanaşı, fənn müsabiqələrində şagirdlərə təqdim edilən məntiq bloku ləğv olunur. Belə ki, iştirakçılar sadəcə müvafiq fənn üzrə tapşırıqları həll edəcəklər. Müsabiqənin iki mərhələsi qapalı test tapşırıqları formatında, final mərhələ isə açıqtipli tapşırıqlardan ibarət olacaq.

Qeyd edək ki, fənn müsabiqələri qalibləri Elm və Təhsil Nazirliyi tərəfindən yaradılmış Beynəlxalq Olimpiadalar Mərkəzində hazırlıq prosesinə cəlb olunur, müvafiq təmayüllər üzrə lisey və gimnaziyalara müsabiqədənkənar qəbulolma şansını əldə edirlər.

Eyni zamanda V sinif şagirdləri üçün keçirilən Lütfi Zadə adına Məntiq Olimpiadası cari tədris ilindən "Lütfi Zadə adına Riyaziyyat-məntiq Olimpiadası" adlandırılacaq və şagirdlərə bu istiqamətdə müvafiq tapşırıqlar təqdim olunacaq.

Məktəblilərarası fənn müsabiqələri və Lütfi Zadə adına Riyaziyyat-məntiq Olimpiadasının rayon (şəhər) mərhələsinin mart ayında keçirilməsi planlaşdırılır.

# Əməkdaşlığın cari vəziyyəti, perspektivləri müzakirə olunub

## Elm və təhsil naziri Rusiya Federasiyasının ölkəmizdə yeni təyin olunmuş səfiri ilə görüşüb



Oktyabrın 31-də elm və təhsil naziri Emin Əmrullayev Rusiya Federasiyasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimovla görüşüb.

Görüş zamanı iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti, perspektivləri müzakirə olunub. Tərəflər Azərbaycan Respublikasında rus dilinin tədrisi ilə bağlı mövcud vəziyyət, habelə Rusiya Federasiyasında Azərbaycan dilinin tədrisinə dəstəyin göstərilməsi ətrafında fikir mübadiləsi aparıblar. Bundan başqa, peşə təhsili sahəsində əlaqələrin önəmi vurğulanıb, bu istiqamətdə mütəxəssislərin hazırlanması imkanları müzakirə olunub.

# BMU beynəlxalq reytinqdə irəliləməyi hədəf seçib

## "QS Quacquarelli Symonds" agentliyinin əməkdaşları ilə görüş

Bakı Mühəndislik Universitetinin (BMU) rəhbər heyəti ilə Böyük Britaniyanın "QS Quacquarelli Symonds" (QS) beynəlxalq reytinq agentliyinin əməkdaşları arasında onlayn görüş keçirilib.

Görüş beynəlxalq reytinqlərdə BMU-nun daha yüksək pillələrə qaldırılması və qlobal mühitdə tanıdılması istiqamətində həyata keçirdiyi tədbirlərin, eyni zamanda növbəti mərhələlərin müzakirəsi məqsədi daşıyıb.

BMU-nun rektoru Yaqub Priyev hazırda universitetin növbəti ildə reytinqdə daha da irəliləməsi üçün aparılan işlər, o cümlədən bu sahədə ali təhsil ocağının fəaliyyət planı haqda danışıb. Rektor agentliklə birgə aparılan müzakirələrin faydalı olacağına və ümumi işə töhfə verəcəyinə inandığını vurğulayıb.

Sonra "QS Quacquarelli Symonds" əməkdaşları-agentliyin baş məsləhətçisi Veronika Omeni, konsaltinq layihələri üzrə koordinatoru Dara Bukhtoyarova, konsultantları Habib Fardoun və Nilly Castano təqdimatlarla çıxış ediblər. BMU-nun reytinq səviyyəsinin yüksəldilməsi məqsədilə apardığı ümumi işlər və strateji yanaşmada, eləcə də elmi fəaliyyət, nəşrlərdə istinad və sitatlarda müsbət tendensiyanın müşahidə olunduğunu deyən beynəlxalq ekspertlər, bununla yanaşı, ali təhsil ocağının mövqeyinin yaxşılaşdırılması üçün vacib olan əsas məqamları diqqətə çatdırıblar.

Agentliyin əməkdaşlarının təqdimatlarında universitet reytinqinin müəyyənləşdirilməsində beynəlxalq əlaqələrin genişləndirilməsinin vacibliyi, elmi-tədqiqat platforması, ən güclü həmkarların tədqiqat nəticələri, mövzuya görə sitat və istinadlar üzrə baxış sayı, 2025-ci reytinq dövrü üçün əsas tarixlər və s. kimi məsələlər vurğulanıb.

BMU-nun fəaliyyət planı üzrə istiqamətlərin bir daha nəzərdən keçiriləcəyini və diqqətə çatdırılan başlıca məqamların araşdırılacağını, nəticədə irəliləyişlərin əldə olunacağına ümid etdiyini deyən rektor Y.Piriyev faydalı müzakirələr, həmçinin səsləndirilən tövsiyə və fikirlərə görə "QS Quacquarelli Symonds" komandasına təşəkkürünü ifadə edib.

# Britaniya Şurasının Avropa regionu üzrə rəhbəri ilə görüş

Oktyabrın 26-da elm və təhsil nazirinin müavini Həsən Həsənli Britaniya Şurasının Avropa regionu üzrə rəhbəri Coanna Börk ilə görüşüb.

Görüşdə təhsil sahəsində ikitərəfli əlaqələrin cari vəziyyətindən məmnunluq ifadə edilib və gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub. Tərəflər Britaniya Şurasının dəstəyi ilə ölkəmizdə bir sıra layihələrin uğurla icra olunduğunu qeyd ediblər. Bildirilib ki, ümumi, peşə və ali təhsil sahələrini əhatə edən layihələr çərçivəsində müəllimlərin bilik və bacarıqlarının inkişafına, ingilis dilinin tədrisi keyfiyyətinin artırılmasına müsbət töhfə verilib, həmçinin Azərbaycan Respublikası və Böyük Britaniya ali təhsil müəssisələri arasında əməkdaşlığın qurulmasına, gənclər arasında tətbiqi incəsənət və sahibkarlıq bacarıqlarının inkişafına dəstək göstərilib.



Görüşün sonunda Elm və Təhsil Nazirliyi və Britaniya Şurasının Azərbaycandakı nümayəndəliyi arasında əməkdaşlığa dair Niyyət Məktubu və 2023-2024-cü tədris ili üzrə Fəaliyyət Planının imzalanması mərasimi keçirilib.

# UTECA İstanbul Nişantaşı Universiteti ilə əməkdaşlığa başlayır

Azərbaycan Texnologiya Universiteti (UTECA) ilə İstanbul Nişantaşı Universiteti (İNU) arasında əməkdaşlıq memorandumu imzalanıb.

Bu münasibətlə hər iki universitet arasında onlayn görüş keçirilib. Görüşdə ATU-nun rektoru vəzifəsini müvəqqəti icra edən dosent Yaşar Ömərov və İNU-nun rektoru professor İlhami Çolak əməkdaşlığın perspektivlərindən, hər iki universitet üçün əhəmiyyətindən danışıb, birgə görüləcək işləri müzakirə ediblər.

Görüş çərçivəsində hər iki ali məktəb haqqında hazırlanmış qısa təqdimatlar nümayiş etdirilib, sonda əməkdaşlıq memorandumu imzalanıb.

Memorandumda Texnologiya Universiteti ilə Nişantaşı Universiteti arasında akademik və inzibati heyətin, eləcə də tələbələrin mübadiləsini həyata keçirmək, elmi-tədqiqat sahəsində əməkdaşlıq məsələləri nəzərdə tutulur.

# SABAH tələbəsi BMT-nin qərargahında təhsil səfərində

Bakı Dövlət Universitetinin SABAH qruplarının "Hüquqşünaslıq" ixtisası üzrə IV kurs tələbəsi Zübeyir Bağırzadə BMT-nin İsveçrənin Cenevrə şəhərində yerləşən qərargahında təhsil səfərində iştirak edib.

Səfər BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı, "Gender Hub Azərbaycan" və "ELSA Azərbaycan" qeyri-hökumət təşkilatlarının birgə təşkilatçılığı ilə həyata keçirilib.

Təhsil səfərinin məqsədi BMT-nin insan hüquqları mexanizmlərinin işi ilə tanış olmaq, xüsusilə beynəlxalq qurumun qadın hüquqları və gender bərabərliyi sahəsində fəaliyyətini öyrənməkdir.





# Bacıların MÜƏLLİMLİK sevdası

## Onlar müəllimlik ixtisasını seçdilər, ADPU-da təhsil alırlar

...Bəli, bu yazıda bir evin, bir ailənin üç qız övladının həyat yoluna işıq salmağa çalışacağam. Onlar Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) tələbəsidirlər. Əslində bu bacıların üçünün də eyni universitetdə təhsil almağı diqqətimi çoxdan cəlb etmişdi. Bu günlərdə universitet rəhbərliyinin onları qəbul etməsi və tələbə bacılarla həmsöhbət olması, arzu-istəklərini dinləməsi məni də oxucular üçün maraq doğura biləcək bəzi məqamları qələmə almağa həvəsləndirdi. Bacılardan böyüyü və təcrübəlisi Sevil Qafarova ADPU-nun Kimya və biologiya fakültəsinin V kurs tələbəsidir. İlk olaraq bu ali məktəbi seçməsinin səbəbi barədə fikir və mülahizələrini dinlədim.

### Müəllimlik peşəsini seçdiyimdən məmnunam

“2002-ci ildə Xaçmaz rayonunun Çarxı kəndində anadan olmuşam. Akademik Zərifə Əliyeva adına 8 nömrəli məktəb-liseyi bitirmişəm. Lisey mənim üçün təkcə elm ocağı deyil, həm də həyat məktəbi olub. Uşaq yaşlarından həmişə sevimli müəllimlərimə bənzəyəcəyimi qərarlaşdırmışam. Böyük düha sahibi olan Ulu Öndər Heydər Əliyev zamanında və məqamında görün necə gözəl deyib: “Orta məktəbin vəzifəsi təkcə uşaqlara təhsil verməklə kifayətlənməməlidir, onlar, ilk növbədə, vətən üçün layiqli övladlar yetişdirməlidirlər”. Tam məsuliyyətimlə deyirəm ki, bir vaxtlar təhsil aldığım lisey də məhz belə məktəblərdəndir. Orta məktəb illərində ibtidai sinif müəllimim olan Mətanət Hacıbalayeva, sinif rəhbərim Səxavət Məmmədova mənim bugünkü uğurlarımın təməlini öz şəxsi nümunələri ilə qoyan müəllimlərimdəndir. Təkcə biliklərə deyil, yüksək insani keyfiyyətlərə yiyələnməyi də onlardan öyrənmişəm. Bir vaxtlar onların dilindən qopan, “qızlar üçün ən gözəl peşə həkim, yaxud müəllimlikdir” kimi ifadələr bugünədək qulağımda sırğa olaraq qalmaqdadır. Əslində müəllimlik peşəsini seçməyimin səbəbi də bax, elə bu olub. Qəbul imtahanlarının nəticələrinə görə topladığım 480 balla bu gün artıq V kursunda oxuduğum sevimli universitetimə qəbul olundum. Zərrəcə peşiman deyiləm, çünki sevdiyim Kimya və biologiya fakültəsinin tələbəsi oldum. Çox keçməz mən də başqa müəllim həmkarlarım kimi əlimə jurnal alıb sinfə daxil olaram, şagirdlərimə, “salam, uşaqlar”, - deyə, səslənərəm. Onlar da, “salam, müəllim”, - deyə, hədsiz sevgi hissi ilə salamımı cavablandırarlar. Elə ilk dərsdə tanışlıqdan sonra qısaca olaraq onlara müəllimlik peşəsini seçməyimin sirlərini açıqlayaram. Qoy onlar da bilsinlər ki, həyatda müəlliminə oxşamağa çalışan şagird heç vaxt uduzmaz və onun uğurları daima bol olar. İlk gündən çalışacağam uşaqlara kimya və biologiya fənlərini sevdirməklə yanaşı, onların diqqətini davranış qaydalarıma alışdırım. Arzu edirəm bu gün müəllimlərim haqda söylədiklərimi gələcəkdə şagirdlərim mənim haqqımda ürəkdolusu təkrarlasınlar. Bu, mənim üçün əsl xoşbəxtlik olar.

### Məktəbdə də, universitetdə də fəal

Orta məktəbdə oxuyarkən dərs əlaçısı olmaqla bərabər məktəbin ictimai işlərində də fəallıq nümayiş etdirib. Təhsil ocağını region üzrə intellektual yarışlarda təmsil edib. 2019-cu ildə Xaçmaz şəhər məktəblərarası intellektual yarışmasında təmsil etdiyi məktəbin adı I yerdə qərarlaşıb: “Sosial aktivliyimi universitetə qəbul olandan sonra da davam etdirmişəm. Fakültələrarası intellektual yarışda Kimya-biologiya fakültəsi olaraq birinci yeri qazandıq. İlk vaxtlardan ADPU-nun Tələbə Gənclər Təşkilatında pillə-pillə addımlayaraq fakültə rəhbəri kimi fəaliyyət göstərdim. Daha sonra IV kursda ADPU TV-yə “Ya danış, ya keç” adlı layihəmi irəli sürərək, onun icrasında aparıcı rolda çıxış etdim. Fakültəmizin Tələbə Elmi Cəmiyyətinin Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu və 100-cü ildönümünə həsr olunan Elmi Konfransında iştirakçı oldum. 2022-ci ildə keçirilən konfransda kimya üzrə elmi işimi təhvil verdim. Bu ilk işimdə mənə yaxından dəstək olan müəllimim Nazəni Novruzovaya təşəkkürümü bildirirəm. 2023-cü ildə isə həm kimya, həm də biologiya üzrə elmi işimi müdafiə etdim. Mənəvi dəstəyini hiss etdiyim müəllimlərdən biri də Sevil Şirəliyevadır. Bütün uğurlarıma görə başda atam və anam olmaqla müəllimlərimin hər birinə minnətdarlığımı bildirirəm.

2023-cü ilin 19 oktyabr tarixində ADPU-nun rektoru Cəfər Cəfərov bizimlə görüşdü. Rektorumuzun biz üç bacı ilə səmimi söhbəti, verdiyi tövsiyələri çox dəyərli idi.

### “Müəllimlik peşəsini mənə sevdirən MÜƏLLİM”

Sevda Qafarova 2004-cü ildə Xaçmaz şəhər Çarxı kəndində doğulub. Bacıları kimi o da Akademik Zərifə Əliyeva adına Xaçmaz şəhər 8 nömrəli məktəb-liseyi bitirib. Müəllimlərinin bütün müsbət keyfiyyətlərindən bəhrələnib: “Coğrafiya müəllimim Şahin Əliyev bu fənni mənə necə sevdirdisə artıq gələcəkdə coğrafiya müəllimi olacağımı qərarlaşdırdım. 2020-ci ildə tam orta təhsil attestatını aldım və hazırlaşdığım qrup üzrə yaradılan sinifdə təhsilimi davam etdirdim. Sinif rəhbərim Sitarə Novruzova mənə yaxından dəstək idi. Deyirdi ki, bu məktəbdə davamçım sən olmalısan. Coğrafiya üzrə bütün sualları həmişə mənə ətraflı izah edirdi. Əgər mənə, müəllimlik peşəsini sənə kim sevdirdi? - sualı versələr cavabım Sitarə Novruzova olacaq. Hazırda da o, universitet həyatımda qazandığım bütün uğurlarıma görə məni çox dəstəkləyir və həmişə yanımda olduğunu bildirir. 2022-ci ildə DİM-in apardığı qəbul imtahanında ümumi nəticəm 307,8 bal olmuşdu. Bunun 120 balı coğrafiya fənnindən idi, çünki bu, ən sevdiyim fənn idi . 2023-cü ilin mayında ADPU-nun Tarix və coğrafiya fakültəsində Tələbə Elmi Cəmiyyətinin keçirdiyi Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunan Elmi Konfransda müəllimim Türkan Məmmədovanın rəhbərliyi ilə hazırladığım “Kiçik Qafqaz regionunun ekoloji problemləri” mövzusunda məqalə ilə çıxış edərək qalib oldum”.

### “Müəllim sizsiniz” yarışmasında I yer

Nisə Qafarova da orta məktəb illərində qazandığı uğurlardan həvəslə söz açdı. 2006-cı ildə Xaçmaz rayon Çarxı kəndində anadan olduğunu söylədi. 2012-ci ildə Xaçmaz şəhər Akademik Zərifə Əliyeva adına 8 nömrəli məktəb-liseydə təhsil alıb. Xaçmaz Hazırlıq Mərkəzinin keçirdiyi “Müəllim sizsiniz” yarışında I yerə, bacısı Sevda isə III yerə layiq görülüb. Həmin il Azərbaycan Dövlət Pedaqoji Universitetinə qəbul olunub və riyaziyyat fakültəsində “İnformatika müəllimliyi” ixtisası üzrə təhsil alır. İki bacısı kimi o da universitetdə dövlət sifarişi əsasında oxuyur. Nisə Qafarova ADPU-nun fəal tələbələrdən biridir. ADPU TV-də aparıcı namizəd, Tələbə Gənclər Həmkarlar İttifaqında qrup meneceridir. İstedadlı tələbə 8 Noyabr Zəfər Günü ilə bağlı keçiriləcək tədbirdə çıxış etməyə ciddi hazırlaşır.

Üç tələbə qızı, üç mehriban bacını dinlədikcə ürəyimdə onların hər birinə ayrı-ayrılıqda hörmət və rəğbət, valideynlərinə, müəllimlərinə, təhsil aldıqları müqəddəs təhsil ocaqlarına isə hörmət və ehtiram hissləri bir-birini hədsiz coşqu hissi ilə əvəzləyirdi.

**Sifai SƏFƏROVA**

“Əməkdar müəllimlərimizi tanıyaq”

# “Şagirdlərimin uğurları üçün yorulmadan çalışıram”

## Müəllimlikdə əməkdar Zenfira Hüseynovanın uğur hekayəsi



Nümunəvi ailənin qızı nümunəvi şagird olub. İndi isə nümunə göstərilən müəllimdir. Bu dəfə “Əməkdar müəllimlərimizi tanıyaq” rubrikasında Zenfira Hüseynovanın hekayəsini paylaşırıq.

### Sevgisi riyaziyyatı peşəyə çevirdi

1965-ci ildə Beyləqan rayonunda doğulan Zenfira Hüseynova ailədə məktəbə, məktəbdə həyata hazırlanıb. Ziyalı ailədə dünyaya göz açan bu qız rayondakı F.Hacıyev adına 2 nömrəli tam orta məktəbə gedib. Hər fənni oxuyub, mənimsəyib, amma riyaziyyatı həm də sevib. Məktəbi əla qiymətlərlə bitirərək sevgisinin arxasınca getməyə qərar verib. Ali məktəb seçimində elə də çətinlik çəkməyib. Müəllimliyin əsas ünvanına - Azərbaycan Dövlət Pedaqoji Universitetinə baş vurub. Müraciəti uğurla dəyərləndirilib və o, burada riyaziyyat-informatika və hesablama texnikası fakültəsində təhsil alıb. 1989-cu ildən Beyləqan rayonu N.Allahverdiyev adına şəhər 1 nömrəli tam orta məktəbin müəllimidir: “Peşəmin vurğunuyam. Bu peşəni həm də uşaqlara görə sevirəm. Şagirdlərimin uğurları üçün yorulmadan çalışıram”.

O qədər ürəklə çalışıb ki, bir əyalət məktəbinin müəllimi olan Zenfira xanımın nüfuzu məktəbini, elini, regionunu aşıb paytaxta qədər çatıb. Məktəbdə verdiyi hər dərs şagirdlərinin ömrünə işıq olub. Çünki bütün elmlərin açarını verib. “Çox qapını açacaq riyaziyyat”, - deyib. Yetər ki, o açarı doğru qapıya sal.

Özü də doğru qapıdadır Zenfira müəllim. Riyaziyyat müəllimi olmaq onun bu həyatda verdiyi ən doğru qərardır. Çünki riyaziyyatı, ilk növbədə, sevir. Atasının sevdirdiyi qədər, atası kimi sevir riyaziyyatı, həm də atasını sevdiyi qədər sevir. Çünki riyaziyyat sevgisi atasından gəlib ona: “Atam mühəndis olub. Riyaziyyatı çox sevirdi, mənə də sevdirdi”.

Riyaziyyat elə bir elmdir ki, onu, sadəcə sevməklə bilmək, hətta öyrətmək mümkün deyil. Zenfira Hüseynova riyaziyyatı tək öyrənməyib, başqa fənlərlə qarşılaşdırıb öyrənib, əlaqələrini yaradıb mənimsəyib. Nəticədə riyazi bacarığı ilə öncə məktəbdə, sonra institutda fərqlənib.

Mühəndis atası bilirdi ki, riyaziyyat bir çox elmlərin açarı ola, hətta insan üçün həyatı asanlaşdıra bilər, amma məktəbdə keçilən hər fənnin verdiyi bir dərs var. Odur ki, qızının hər mövzudan çıxartdığı dərs, hər fəndən aldığı qiymətlə maraqlanıb. Nəticədə həyata hazır, dünyagörüşlü, bacarıqlı bir qız yetişdirib.

### Müəllimlikdə uğur qazandı

İndi o qız riyaziyyatda uğura çatmış, uğuru peşəsinə də gətirmiş, peşədə də yüksəlmiş bir müəllimdir, ƏMƏKDAR müəllimdir: “Atam çox arzu edirdi ad almağımı. Fəaliyyətimi dövlətin də qiymətləndirməsi ən böyük arzusu idi. Çox təəssüf ki, o vəfat edəndən 1 ay sonra fəxri ad aldım”.

O gün 2013-cü ilin oktyabr ayına təsadüf edib. Müəllimlərin peşə bayramında “Əməkdar müəllim” adına layiq görülən Z.Hüseynova pedaqoji fəaliyyətinin zirvəsinə ucalıb: “Pedaqoji fəaliyyətim, buraxılış və qəbul imtahanlarında şagirdlərimin yüksək nəticələri nəzərə alınaraq bu ada layiq görüldüm”.



Z.Hüseynova indi də sertifikatlaşdırma imtahanlarını gözləyir. Bu dəfə özünü orada sübut edəcək: “Müəllimlərin ilk qiymətləndirmə imtahanlarında iştirak etdim. Diaqnostik qiymətləndirmədə 56 bal topladım. İndi səbirsizliklə riyaziyyatçıların sertifikatlaşdırma imtahanlarına hazırlaşıram. Bu, mənə qazandığım nüfuza, aldığım ada, daşıdığım vəzifəyə layiq olduğumu təsdiq etmək üçün lazımdır!”

**Ruhiyyə DAŞSALAHLI**

# VI və IX siniflər üzrə monitorinq keçirilib

**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil müəssisələrinin VI və IX sinifləri üzrə monitorinq keçirilib.**

Monitorinqin keçirilməsində əsas məqsəd təhsilalanlarda müvafiq standartlar üzrə bilik və bacarıqların hansı səviyyədə formalaşdığını müəyyən etmək, keyfiyyətin artırılması istiqamətində tədbirlər görmək, şagirdlərin gələcək inkişafına və müəllimlərin peşəkarlığının təkmilləşməsinə dəstək olmaqdan ibarətdir.

BŞTİ-nin Təhsilin keyfiyyətinə nəzarət sektorunun təşkilatçılığı ilə keçirilən monitorinq Azərbaycan və rus bölmələrində tədris dili, riyaziyyat və ingilis dili fənləri üzrə aparılıb.

Təhsilalanlara tədris dili üzrə 30, riyaziyyat fənni üzrə 25, xarici dil üzrə isə 30 sual olmaqla, ümumilikdə 85 sual təqdim olunub. Sualların cavablandırılması üçün 150 dəqiqə vaxt verilib.

BŞTİ-nin Təhsilin keyfiyyətinə nəzarət sektorunun müdiri Anar Mustafazadə monitorinq prosesinin gedişatını izləyib.

Qeyd edək ki, monitorinqin nəticələrinin təhlili ümumi təhsil müəssisələrinə təqdim olunacaq, mövcud problemlərin həlli yolları üçün müvafiq tövsiyələr veriləcək.

# Şəhid məzunlarının xatirəsi anılıb



## Xalq Təhsili Muzeyində anım günü

**X**alq Təhsili Muzeyində oktyabrın 30-da Bakı şəhər Sabunçu rayonu 170 nömrəli tam orta məktəbin şəhid məzunlarına həsr olunmuş anım günü keçirilib. Tədbirdə məktəbin müəllim və şagirdləri, şəhidlərin ailə üzvləri, müharibə iştirakçıları və Xalq Təhsili Muzeyinin kollektivi iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Anım mərasimini giriş sözü ilə Xalq Təhsili Muzeyinin direktor vəzifəsini icra edən Z.Şiriyeva açaraq şəhidlik zirvəsinə ucalan Vətən oğullarımızın daim ehtiramla anılacağını bildirib. Ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Z.Şiriyeva 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin uzaqgörənliyi və qətiyyəti, Müzəffər Ordumuzun rəşadəti və xalqımızın iradəsi sayəsində əldə etdiyimiz böyük qələbədən söz açıb. Anım günündə muzeyin direktor müavini K.Həsənova "Zəfər salnaməsi" adlı məruzə ilə çıxış edərək Azərbaycan xalqının keçdiyi tarixi mübarizə yollarından, şəhid və qazi ailələrinə dövlət qayğısından bəhs edib.

Daha sonra məktəbin direktoru Ü.Aslanova vaxtilə işğal altında olan torpaqlarımızın tarixi, coğrafiyası və mədəni dəyərlərini şagirdlərə təbliğ etmək məqsədilə həyata keçirdikləri "Qarabağı tanıyaq və tanıdaq" adlı layihə, məktəbin şəhid məzunları barədə məlumat verib, videoçarx nümayiş etdirilib. Məktəbin müəllimləri G.Mirişova, Ə.Daşdəmirova, A.Məmmədova çıxış edərək qəhrəman məzunları ilə bağlı xatirələrini bölüşüb, vətənə layiqli övladlar böyütdüklərinə görə şəhid valideynlərinə öz təşəkkürlərini bildiriblər.

Şəhid valideynləri G.Mehdiyeva, N.Alıyev, S.Vəliyeva, şəhidin bacısı M.Alıyeva, şəhidin sinif yoldaşı, müharibə iştirakçısı M.Baxışov Vətən və xalq yolunda canından keçən və əbədiyyətə qovuşan yaxınlarından kədər və qürur hissi ilə bəhs ediblər. Tədbirdə 170 nömrəli tam orta məktəbin şagirdlərinin ifasında vətənpərvərlik mövzusuna həsr olunmuş şeir və mahnılar səsləndirilib. Sonda tədbir iştirakçıları Xalq Təhsili Muzeyinin ekspozisiyası ilə tanış olublar.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti 23 L, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya №** 022327, **İndeks:** 0003, **Tiraj** 4105 **Sifariş** 2896
**Məsul növbətçi:** Ş.Cəfərov


Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

# BAKI SLAVYAN UNİVERSİTETİ

Kafedra müdiri vəzifəsini tutmaq üçün müsabiqə

## ELAN EDİR:

Praktik rus dili və onun tədrisi metodikası kafedrası üzrə - 1 yer

**Qeyd:** *Müsabiqədə iştirak etmək üçün sənədlərin qəbulu bu elan qəzetdə dərc olunan gündən bir ay müddətində təqdim edilməlidir. Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər (BSU-da işləyən şəxslər ərizə ilə birlikdə, bu qaydaların 4,5,6-cı bəndlərində qeyd olunan sənədləri təqdim etməlidirlər):*

1. Rektorun adına ərizə;
2. Kadrlar uçotunun şəxsi vərəqəsi;
3. Tərcümeyi-hal;
4. Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri;
5. Elmi və elmi metodiki işlərin siyahısı;
6. Kafedra müdiri və fakültə dekanının müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması

**Ünvan:** Bakı AZ 1014, S.Rüstəm küçəsi-33.
**Telefon:** 599-08-70, daxili nömrə 206

**REKTORLUQ**

# Etibarsız sayılır

**Ağdam rayon** R.Məmmədov adına Mahrızlı kənd tam orta məktəbi 2009-cu ildə bitirmiş Əsədov Rövşən İntiqam oğluna verilmiş B-657106 nömrəli tam orta təhsil haqqında attestat tapıldığı üçün etibarlı sayılır.

**İmişli şəhər** 7 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Bəşirzadə Sənan Əsəd oğluna verilmiş E-094534 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Xəzər rayonu 234 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Əliyeva Samirə Zakir qızına verilmiş A-063500 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qax rayon** Almalı kənd tam orta məktəbi 1994-cü ildə bitirmiş Xəlilova Dilrubə Telman qızına verilmiş 76 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dəniz Akademiyası** tərəfindən 2018-ci ildə Orucov Emil Yaşar oğluna verilmiş C-025226 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Regional Kollec** tərəfindən 2020-ci ildə Əliyeva Vəfa Eldar qızına verilmiş AA-138987 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Saatlı şəhər** 3 nömrəli tam orta məktəbin XII sinfini (qiyabi) 1999-cu ildə bitirmiş Xəmmədova Gülputa Əli qızına verilmiş 351237 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli Bakı Tibb Məktəbi** tərəfindən 1984-cü ildə Abdullayeva Hökümə Ağakərim qızına verilmiş ЗТ-034359 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Culfa rayon** Şurud kənd tam orta məktəbi 2008-ci ildə bitirmiş Əliyev Ramin Telman oğluna verilmiş B-474988 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 120 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Əliyeva Səbinə Bala Əmi qızına verilmiş B-600021 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2021-ci ildə Məmmədli Məryəm Müşfiq qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Maqov kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Əhmədova Naida Süleyman qızına verilmiş B-119590 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Politexnik İnstitutu** tərəfindən 1975-ci ildə Məmmədov Cavanşir Balamir oğluna verilmiş A-I-015610 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 286 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Novruzov Rafiq Cavanşir oğluna verilmiş A-080485 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 34 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Quliyeva Xəyalə Xaliq qızına verilmiş 287556 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 2 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Bayramov Ümidəli Xəyyam oğluna verilmiş E-132752 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 11 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Əhmədova Şəlalə Xanlar qızına verilmiş B-248980 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 44 nömrəli tam orta məktəbin IX sinfini 1997-ci ildə bitirmiş Əliyeva (Hüseynova) Aysel Sahib qızına verilmiş A-321259 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 16 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Bayramova Ruhiyyə Aqil qızına verilmiş A-115901 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Ərçivan qəsəbə 3 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Əsədullayeva Töfsalə İsa qızına verilmiş A-546729 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 248 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Muradova Təhminə Əfrayıl qızına verilmiş A-194962 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə İqtisad Kolleci** tərəfindən 2022-ci ildə Qəfərli Bahar Vüqar qızına verilmiş təhsil kartı itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Komanlı kənd tam orta məktəbi 2017-ci ildə bitirmiş Əliyeva (Vəliyeva) Sevər Telman qızına verilmiş E-066432 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2001-ci ildə Hümbətova İlahə Hümbət qızına verilmiş A-076172 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Təhsil Nazirliyi** tərəfindən Əsədov Mahmud Ceyhun oğluna verilmiş 015671 və 016238 nömrəli şəhadətnamələr itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dəniz Akademiyası** tərəfindən 2020-ci ildə Əmrahov Nurlan Ehtibar oğluna verilmiş C-087474 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 10 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Əzimzadə Elşad Elişad oğluna verilmiş E-531817 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qax rayon** Qaşqaçay kənd tam orta məktəbi 1999-cu ildə bitirmiş Cumayeva (Osmanova) Şöhlə İsgəndər qızına verilmiş A-391514 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 7 nömrəli tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Rzayeva Nübar Mehman qızına verilmiş B-642382 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstitutu Mingəçevir filialı** tərəfindən 2015-ci ildə Sarıyeva Rövşanə Sadiq qızına verilmiş A-065766 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2018-ci ildə Aslanlı Ümman Şahin oğluna verilmiş C-022761 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 54 nömrəli tam orta məktəbin IX sinfini 1991-ci ildə bitirmiş Mehrəliyeva Gülnarə Seyfəddin qızına verilmiş A-769016 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 237 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Əliyeva (Babayeva) Xatirə Xanlar qızına verilmiş A-336136 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Səbail rayonu "Baku Oxford School" tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş Novruzova Leyla Eldəniz qızına verilmiş E-181786 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2008-ci ildə Aslanova (Məmmədova) Aygün Şükür qızına verilmiş B-117575 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 144 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Qəribli Aliyə Taleh qızına verilmiş E-452502 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** Rəstəcə kənd tam orta məktəbin IX sinfini 2015-ci ildə bitirmiş Həmidova Fatimə Elburus qızına verilmiş A-549419 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** Təzə Şilyan kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş İsmayılov Nicat Rəhim oğluna verilmiş A-336374 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad İnstitutu** tərəfindən 1992-ci ildə İsmayılov Etimad Məmməd oğluna verilmiş ЦВ-858334 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 104 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Əbdüləzimova (Quliyeva) Ruhiyyə Xasay qızına verilmiş A-324144 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 109 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Mustafayeva Mətanət Nizami qızına verilmiş A-243334 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**6 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2016-cı ildə Truhidə İrfan İlham oğluna verilmiş A-087188 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**13 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2015-ci ildə Hacızadə Səxavət Qabil oğluna verilmiş A-397507 nömrəli attestat və A-059458 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 210 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Cəfərli Leyla Tağı qızına verilmiş E-008234 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Qovlar şəhər Humanitar Təmayüllü məktəb-liseyi 2023-cü ildə bitirmiş Hüseynova Arzu Məhəmməd qızına verilmiş C-711708 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Qovlar şəhər Humanitar Təmayüllü məktəb-liseyi 2023-cü ildə bitirmiş Hüseynli Fatimə Mübariz qızına verilmiş E-624111 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Asəf Zeynallı adına Musiqi Kolleci** (Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci) tərəfindən 2012-ci ildə İsmayılova Fəridə Şamil qızına verilmiş AA-014414 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 152 nömrəli tam orta məktəbi (Novruzov Qardaşları adına 36 nömrəli tam orta məktəb) 2005-ci ildə bitirmiş İsmayılova (İbrahimova) Lamiyə Vəlyəddin qızına verilmiş B-160629 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Banbaşı kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Əhmədov Şamil Əlövsət oğluna verilmiş A-040851 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Sərçuvar kənd tam orta məktəbi 2008-ci ildə bitirmiş Aslanov Elvin Aslan oğluna verilmiş B-508483 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 213 nömrəli məktəb-liseyi 2004-cü ildə bitirmiş Yaminova Xumarə Bəhram qızına verilmiş B-043631 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay şəhər** 1 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Muradova Surə Əli qızına verilmiş B-618260 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 18 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Yaşarlı Tural Mehman oğluna verilmiş A-065907 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Mustafabəyli kənd tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Abdullayev Valeh Hüseynqulu oğluna verilmiş 832 nömrəli ümumi orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Göyçay rayon** Yeniarx kənd tam orta məktəbi 1990-cı ildə bitirmiş Fətəliyeva Şölə Əli qızına verilmişA-073317 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 81 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Ağayeva Günel Şikar qızına verilmiş A-689366 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 217 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Zəkərəyeva Mətanət Faiq qızına verilmiş A-399615 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 250 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Ələkbərov Maşallah Elman oğluna verilmiş ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayon** Çuxuryurd kənd tam orta məktəbi 2023-cü ildə bitirmiş Həsənov İlham Osman oğluna verilmiş E-598667 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Şahvəlilər kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Abuzərova Lamiyə Asif qızına verilmiş B-457154 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lerik şəhər** 1 nömrəli texniki fənlər təmayüllü məktəb-liseyi 2011-ci ildə bitirmiş Həsənov Ruslan İmran oğluna verilmiş A-054243 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** H.Mahmudbəyov adına 2 nömrəli Texniki-Humanitar Liseyi 2022-ci ildə bitirmiş Davıdov Kərim Anar oğuna verilmiş E-469946 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Dondar Quşçu kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Vəliyev Asim Nazim oğluna verilmiş B-188860 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 141 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Rüstəmli Rauf Ramiz oğluna verilmiş B-684612 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

# Peşəkar inkişaf, sosial rifah halı

Azərbaycanda təhsilverənlərin sertifikatlaşdırılması 2022-ci ildən təşkil edilir. Prosesə ilk olaraq ibtidai sinif müəllimləri cəlb olunublar. Həmin il sertifikatlaşdırma prosesində 11211 ibtidai sinif müəllimi iştirak edib. Prosesi uğurla tamamlayaraq 51-60 bal toplamış 3163 müəllimin vəzifə maaşına 35 faiz, 30-50 bal toplamış 5624 müəllimin vəzifə maaşına isə 10 faiz əlavə edilib.

2023-cü ildə ibtidai sinif müəllimliyi üzrə sertifikatlaşdırmanın test mərhələsində 1334-ü təkrar sertifikatlaşdırma və 21943-ü ilk dəfə iştirak olmaqla ümumilikdə 23277 nəfər uğur qazanıb.

2023-cü ildə Azərbaycan dili və ədəbiyyat fənni üzrə sertifikatlaşdırmanın test mərhələsindən ölkə üzrə 8498 nəfər uğurla çıxıb.

8 sentyabr - 14 oktyabr 2023-cü il tarixlərində keçirilən təhsilverənlərin sertifikatlaşdırılması prosesinin müsahibə mərhələsində 23259 təhsilverən iştirak edib və onlardan 23160 nəfəri fərqlənib.




## 2023-cü il üzrə sertifikatlaşdırmadan keçmiş 5246 təhsilverənin vəzifə maaşına 35 faiz, 17914 təhsilverənə isə 10 faiz artım tətbiq olunub



### Uğur qazananların əməkhaqlarına artım tətbiq olunub

2023-cü il üzrə sertifikatlaşdırmadan keçmiş 5246 təhsilverənin vəzifə maaşına 35 faiz, 17914 təhsilverənə isə 10 faiz artım tətbiq olunub.

Ümumilikdə, 2023-cü ildə təhsilverənlərin sertifikatlaşdırılması prosesinin test mərhələsində 31207 təhsilverən iştirak edib və onlardan 23160 nəfəri test və müsahibə mərhələlərində uğur qazanaraq sertifikatlaşdırmadan keçmiş hesab olunub.

“Sertifikatlaşdırma Azərbaycan təhsilinin keyfiyyətinə uzun vədədə təsir edəcək addımdır. Hər ilin iyun ayında, bir qayda olaraq, bu imtahanlar keçiriləcək. Keyfiyyət standartlarına cavab verə bilməyən müəllimlərlə qanunvericiliyin tələbləri çərçivəsində əmək müqaviləsini davam etdirməyəcəyik” - deyən nazir Emin Əmrullayev prosesi uğurla tamamlayanlar üçün nəzərdə tutulan planlar olduğuna işarə vurub. İlk növbədə uğur qazananların müvafiq olaraq əməkhaqları 10 və ya 30 faiz artırılır: “Artıq ibtidai təhsil səviyyəsində bütün müəllimlərin nəticələri, hər bir müəllimin bilik və bacarığını əks etdirən sertifikatlaşdırma balı bəllidir. Bu, bizim bir sıra qərarlarımızda - istər həmin müəllimlərin 65 yaşına çatanda əmək müqaviləsinin uzadılması, istər vəzifəyə irəli çəkilməsi, istər maddi və qeyri-maddi təşviq edilməsi, saatların bölünməsi və s. kimi məsələlərdə əsas götürəcəyimiz amillərdən biri olacaq. Bu, həm də müəllimlərimizin harada köməyə ehtiyac duyduğunu, hansı məqamlarda onları dəstəkləməliyik, o cümlədən harada boşluqlar olduğunu göstərir. Bu istiqamətdə də metodik xidmətin təşkil olunmasını planlaşdırırıq”.

Ümumiyyətlə, son 10 il ərzində müəllimlərin orta aylıq əməkhaqqı göstəriciləri artıb. 2014-cü ildə bu rəqəm 267 manat idisə, hazırda 830 manatdır. E.Əmrullayev hər sertifikatlaşdırmadan sonra əməkhaqqının qalxacağını vurğulayıb.

### Onlar alacaqları artımı gözləyirlər

2023-cü ilin sertifikatlaşdırma imtahanlarında iştirak edərək 59 bal toplayan Sevinc Fərəcovanın əməkhaqqına 35 faiz artım olacaq.

1994-cü ildə Lerik rayonunda anadan olan gənc müəllim əvvəlcə Astara Pedaqoji Kollecindən “İbtidai sinif müəllimliyi” ixtisası sonra ADPU-dan “Coğrafiya müəllimliyi” ixtisası üzrə məzun olub. 2011-ci ildən özünün də təhsil aldığı Masallı rayonu Ərzuman İsmayılov adına Yeyənkənd tam orta məktəbinin ibtidai sinif müəllimidir.

S.Fərəcova öz üzərində işləməyi sevən müəllimlərdəndir: “Hər müəllim öz üzərində işləməlidir, imtahan oldu-olmadı. Sertifikatlaşdırma bunu bizə xatırlatdı. Məhz bunu etməyimizi təmin etdi”.

Sertifikatlaşdırma imtahanlarının nəticələrinə uyğun olaraq görüləcək tədbirlər də diqqət çəkir. S.Fərəcovanın fikrincə, bu tədbirlər dövlətin müəllimlərin həyat şəraitini yaxşılaşdırmaq istiqamətində reallaşdırdığı ən mütərəqqi addımlardandır.

Daha bir ibtidai sinif müəllimi Ruqiyyə Bəkirova da builki sertifikatlaşdırma imtahanında 59 bal toplayıb.

1995-ci il təvəllüdlü bu gənc müəllim 5 ildir fəaliyyət göstərir. İsmayıllı şəhərindəki 5 nömrəli tam orta məktəbdə çalışır. Sertifikatlaşdırma imtahanlarını müəllimlərin inkişafına yönəlik bir tədbir hesab edir: “Sertifikatlaşdırma prosesi müəllimin həm peşəkar inkişafına, həm də sosial rifah halının yaxşılaşmasına xidmət edir. İndiyədək 670 manat maaş alırdım, bundan sonra əlavə 35 faiz əlavə də alacağam və bu əlavə ailə büdcəmə kifayət qədər yaxşı təsir edəcək”.

Ruqiyyə Bəkirova elm və təhsil nazirinin vədini də xatırladaraq sertifikatlaşdırma prosesinin gənclərin inkişaf etməsi, karyera pillələrində irəliləməsi üçün böyük şans olacağını vurğulayıb.

Təranə Süleymanlı Şirvan şəhər B.Aslanov adına 16 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimidir. 3 il əvvəl keçirilən müəllimlərin işə qəbulu müsabiqəsinin qaliblərindəndir. Həmin müsabiqənin test imtahanları mərhələsində 56 bal toplayaraq müəllimlik fəaliyyətinə başlayıb: “Müəllim olmaq arzum olub. Ona görə şagirdlərimlə işləməyi heç bir vəzifəyə dəyişmərəm. Anam da riyaziyyat müəllimi idi. Mənə müəllimliyi o sevdirib. Onun kimi müəllim ola bilmək üçün çox çalışıram”.

T.Süleymanlı aldığı 570 manat maaşın əlavəsi ilə 750 manata çatacağını deyib: “Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecinin məzunuyam. Maaşıma əlavə olunacaq artımı alacağam. Artımdan sonra alacağım maaşımla maraqlanmışam. 35 faiz əlavə ilə 750 manatadək pul gözləyirəm”.

T.Süleymanlının fikrincə, sertifikasiya imtahanı müəllimlərin işə qəbulu müsabiqəsi ilə müqayisədə asan olub: “Eyni tipli suallar idi. Sadəcə dərəcəsinə görə fərqlənirdi”.

Züleyxa Heydərova Gəncə Dövlət Universitetini “İbtidai sinif müəllimliyi” ixtisası üzrə bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji Universitetində “İbtidai sinfin tədrisi metodikası və metodologiyası” ixtisası üzrə magistratura təhsili alıb. 2018-ci ildən müəllimlik fəaliyyətinə başlayıb. 1 il Şamaxıda, 2 il Şəmkirdə işləyib. Sonuncu dəfə müəllimlərin işə qəbulu müsabiqəsində 2021-ci ildə iştirak edib və 56 balla Göygöl rayonu Quşçu kənd Daşdəmir İmanov adına tam orta məktəbində işə başlayıb: “Quşçu kəndindəki fəaliyyətim də daxil olmaqla, artıq 6-cı ildir müəllimlik fəaliyyəti ilə məşğulam. Sertifikatlaşdirma prosesinə 2023-cü ildə cəlb edildim və imtahanda 57 bal topladım. Sertifikatlaşdırma imtahanı, müəllimlərin işə qəbulu imtahanlarında hər il məzmun dəyişir, dərinləşir. Məncə, belə də olmalıdır. Çünki biz ölkəmizin gələcəyini hazırlayırıq, üzərimizdə böyük məsuliyyət var və bu məsuliyyətin öhdəsindən gələ bilmək üçün hazırlıqlı olmalıyıq. Sürətlə dəyişən dünyada yaşayırıq. İstər tədris metodikası, ixtisas dili, istərsə dünyagörüşü baxımından hazırlıqlı, bacarıqlı, bilikli olmalıyıq ki, yetişdirdiyimiz nəsil də sürətlə dəyişən, inkişaf edən dünyaya hazır olsun”.

917 manat əməkhaqqı alan Z.Heydərovanın fikrincə, 35 faiz əlavədən sonra maaşının nə qədər olacağını hesablamayıb: “Dəniz səviyyəsindən hündürdə yerləşən kənd məktəbində işlədiyim üçün əlavə pul alıram, sinif rəhbərliyinə görə də pulum var. Ona görə alacağım əlavənin nə qədər olacağını bilmirəm”.

Z.Heydərova sertifikatlaşdırma prosesindən uğurla keçən müəllim kimi özünü idarəçi kimi də sınayıb: “Direktorların işə qəbulu müsabiqəsinə qatıldım, amma müsahibə mərhələsindən keçə bilmədim. Peşəkar idarəçi müsabiqəsində də iştirak etmişəm. Orada da esse mərhələsində uğur qazanmışam, növbəti mərhələyə hazırlaşıram”.

Xatırladaq ki, 2026-cı ilə qədər 135 min təhsilverənin sertifikatlaşdırmaya cəlb olunması planlaşdırılır. Bu proses “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”na uyğun olaraq həyata keçirilir.

**Ruhiyyə DAŞSALAHLI**



# Uşaqlarla ünsiyyəti elə qurun ki...

## Uşaq bağçalarında təhlükəsiz öyrənmə mühiti

Bağçada qarşılaşdığı mühit hər bir uşağın düşüncə tərzinin dəyişməsinin, müşahidə qabiliyyətinin artmasının, bədii təfəkkür prinsiplərinin, insanlarla ünsiyyət yaratma vərdişlərinin yaranmasının ilkin mərhələsidir. Məhz buna görə də, hərtərəfli inkişafa yönələn məktəbəqədər təhsil prosesi uşaqların həyatında mühüm əhəmiyyət daşıyır. Bu mühit uşaqların fiziki və mənəvi inkişafına birbaşa təsir edir, onların bacarıqlarını, yaradıcı və şəxsi özəlliklərini ortaya çıxarır. Bağçaların uşaqlara qazandırdığı ən önəmli faydalardan biri də odur ki, onlar evdən kənarda yeni təcrübələr qazanır, başqa uşaqlarla birlikdə bərabər oynamaq, öyrənmək, paylaşmaq kimi vərdişləri formalaşır. Bağça mühitinə öyrəşməsi uşaqların sosiallaşmalarına, xüsusilə nitqin inkişafı üçün zəmin yaradır. Onların söz bazaları artır, ünsiyyətə meyilləri çoxalır. Bu dövrdə yiyələndikləri nitq uşaqların həyat fəaliyyətində böyük əhəmiyyətə malikdir.

Daima inkişafa, kəşf etməyə, araşdırmağa meyilli olan uşaqların fəaliyyətlərini daha da genişləndirmək, dəstəkləmək üçün məktəbəqədər təhsil müəssisələrində sağlam və təhlükəsiz mühitin yaradılması olduqca vacibdir. Mövzu ilə bağlı Bakı Şəhəri üzrə Təhsil İdarəsi Təhsilə Dəstək Mərkəzinin bölmə rəhbəri Fərqanə Seyidlinin və BŞTİ-nin psixoloqu Heyran Səfərovanın fikirlərini öyrəndik.

*- Fərqanə xanım, məktəbəqədər təhsil müəssisələrində təhlükəsiz mühit necə qurulmalıdır?*

- Məktəbəqədər təhsil mühiti hər şeydən əvvəl təhlükəsiz olmalıdır. Körpələr evi və uşaq bağçalarında uşaqların təhlükəsizliyini təmin etmək tərbiyəçi-müəllim və müəssisə rəhbərliyinin əsas məsuliyyətidir. Bütün kollektivdən özünü inkişaf etdirmək, təlim prosesində təhlükəsizliyi nəzərə almaq tələb olunur. Təhlükəsiz mühit dedikdə, uşaqların və pedaqoji kollektivin səhhətindən tutmuş, təlimin baş verdiyi fiziki mühit və psixo-sosial sahə nəzərdə tutulur. Belə ki, məktəbəqədər müəssisələrdə işçilərin və uşaqların səhhətinə ciddi və məsuliyyətli yanaşılması vacibdir. Xüsusən də pedaqoji heyət uşaqlarla birbaşa təmasda olduğu və uşaqların səhhətinə birbaşa təhlükə yaratma ehtimalı nəzərə alındığı üçün onların sağlamlığı ikinci plana keçməməlidir. Uşaqların fiziki cəhətdən özlərini rahat hiss etmələri, sağlam böyümələri üçün aktiv fəaliyyət ilə intellektual fəaliyyətin balanslı şəkildə bir-birini əvəzləməsinə fikir verilməlidir. Otaqlarda təbii gün işığından istifadə edilməsi, havalandırma, uşaqların açıq havada gəzintisi, oynaması sağlamlıqları üçün çox vacib şərtlərdəndir.

Fiziki mühit dedikdə, uşaqların oyun sahələrindən tutmuş istifadə etdikləri oyuncaqlar, alətlər nəzərdə tutulur. Uşaqlar üçün qurulmuş mühit onların ölçülərinə uyğun mebel, ekoloji materiallar tələb edir.

Psixo-sosial sahə dedikdə, uşaqlarla ünsiyyət forması, böyüklərin və yaşıdların bir-birinə qarşı davranışı nəzərdə tutulur. Məlumdur ki, uşaqların inkişafı, öyrənməyə həvəsini artırmaq üçün onlara təhlükəsiz və dəstəkləyici mühit yaradılmalıdır.

*- Bağçalarda sağlam, təhlükəsiz mühitin qurulmasında pedaqoji heyətin rolu nədən ibarətdir?*

- Sağlam mühit pedaqoji heyətdən işin düzgün planlanılmasını və məsuliyyətin kollektiv arasında düzgün paylanılmasını tələb edir. Bəzən yanlış olaraq düşünülür ki, uşaqları təhlükədən uzaqlaşdırmaq üçün onların hərəkətsiz olmalarını təmin etmək lazımdır. Əksinə, uzun zaman hərəkətin növbələşməməsi, passivlik uşaqlarda psixi gərginlik yaradır, onların davranışlarının nəzarət və idarə edilməsini çətinləşdirir. Uşaqların fiziki oyunlara olan ehtiyacı onların harmonik inkişafı üçün çox vacibdir. Bunun fərqində olan müəssisənin rəhbəri, tərbiyəçi-müəllimləri uşaqlar üçün təhlükəsiz mühit yarada bilirlər.

*- Valideyn-uşaq-tərbiyəçisinin pedaqoji əməkdaşlığı necə tənzimlənir?*

- Qeyd etdiyimiz nəticənin valideynlərlə əməkdaşlıq etmədən uğurlu olub-olmadığını müəyyən edə bilmərik. Buna görə də bağça rəhbərliyi pedaqoji heyətin iştirakı ilə açıq qapı günləri, iclas və tədbirlər, fərdi görüşlər vasitəsilə valideynlərlə ünsiyyət qurur, onlarla həm məlumat, həm də təcrübə mübadiləsi aparır. Məhz pedaqoji heyətin valideynlərlə pedaqoji maarifləndirmə aparması olduqca əlverişli prosesdir.

*- Hansı fəaliyyət növləri uşaqların bağçalara marağını daha çox artırır?*

- Düşünürəm ki, indiki dövrdə uşaqlar üçün bağçanı cəlbedici edən məqamlardan biri də yaşıdları ilə ünsiyyət qurulması, müxtəlif növ oyunların oynanılmasıdır. Eyni zamanda məktəbəqədər müəssisə uşaqlara ətraf aləmi tədqiq etməyə, “eksperimentlər” aparmağa şərait yaratsa, uşaqlar üçün bağça daha əyləncəli olar. Uşaqlar onları sevən, dəstəkləyən, azad, təhlükəsiz mühiti yarada bilən böyükləri hiss edir, onlara can atırlar.

### Psixoloq məsləhəti

Psixoloq Heyran Səfərova məktəbəqədər təhsil müəssisələrində uşağa dəstəkləyici öyrənmə mühiti yaratmaq və onunla sağlam ünsiyyət qurmağın çox vacib olduğunu bildirib. O, humanist pedaqogikanın banisi Şalva Amonaşvilinin: “Uşaqla ünsiyyəti elə qurun ki, sanki o sizin istədiyiniz kimidir”-fikrini səsləndirərək qeyd edib ki, bu günün pedaqoqları alfa nəslinin uşaqları ilə işləyirlər. Məhz bu səbəbdən onlarla ünsiyyətdə nəsillərarası düşüncə fərqliliyinin özünü göstərməsi təbiidir: “Çünki bu günün uşaqları süni intellektlə ünsiyyətdədirlər. Pedaqoji prosesdə uşağa əlverişli öyrənmə mühiti yaradılmalı, uşağın fərdi psixoloji xüsusiyyətləri, onun temperament tipi, meyil və maraqları, öyrənmə tərzi, intellekt növü və s. nəzərə alınmalıdır. Təlim-tərbiyə prosesində ailə ilə əməkdaşlıq çox vacib şərtdir. Çünki məktəbəqədər yaş dövründə uşaq üçün nüfuz sahibi valideyndir. Hər bir valideyn öz davranış və xarakteri ilə övladı üçün nümunə olmalıdır. Hələ öz dövründə Mariya Montessori maraqlı bir fikir söyləyib: “3-6 yaşlı uşaqlar musiqili kamerton kimidir. Onlara hansı səsləri ifa etsəniz həmin səsləri eşidəcəksiniz”.

Heyran Səfərovanın sözlərinə görə, məktəbəqədər yaş dövründə uşağın aparıcı fəaliyyət növü rollu oyunlardır: “Oyun prosesində uşaqlar böyüklərin davranışlarını imitasiya edirlər. Bu davranışlar zamanla uşaqda vərdiş halına keçir, bu səbəbdən tərbiyə prosesində böyüklər uşaqlarla sağlam ünsiyyət qurmalı və onlara düzgün oyun yoldaşı olmalıdırlar”.

**Tünzalə QULİYEVA**